# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM EPOXASI HAQQINDA İSA HƏBİBBƏYLİNİN ELMİ-NƏZƏRİ FİKİRLƏRİ

## *İ.Həbibbəylinin M.F.Axundzadənin irsinə, "nazimi-ustad" məsələsinə müasir ədəbiyyatşünas baxışları*



*Gülxani PƏNAH*

XIX əsr Azərbaycan xalqının siyasi həyatında, mədəni inkişafında ziddiyyətli, kəskin münaqişəli bir dövr kimi tarizimizə yazılıb. Azərbaycanın Bakı, Şamaxı, Quba, Gəncə, Qarabağ, Təbriz, Urmiya, Qazax, Car-Balakən, Naxçıvan kimi kiçik feodal dövlətlərə parçalanması, XVIII əsrdən Rusiya, İran və Türkiyə arasında başlanan çəkişmələr, imperialist dövlətlərin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi. Azərbaycanın bir hissəsinin Rusiya, digər hissəsinin İran tərəfindən ilhaq edilməsi xalqımızın tarixinin ən acınacaqlı səhifələridir..

Yaşadığımız bu reallığın, XIX əsrin ilk illərində Azərbaycanın Rusiya və İran tərəfindən işğalının, dövlətçiliyimizə vurulan ağır zərbənin, xalqımızın həsrət və acısının şifahi və yazılı ədəbiyyatında dərin izlər buraxdığını sübut edən yüzlərlə, minlərlə bədii nümunələr vardır. Məhz həmin dövrdə Azərbaycanda Avropa mədəniyyətinə oyanan marağın milli-ədəbi prosesə də təsiri faktdır. Rus və Qərb ədəbi-bədii, mədəni mühitinə bələd olan, Abbasqulu ağa Bakıxanov (Qərb ideyalarını Azərbaycan ədəbiyyatında ənənəvi Şərq sənəti ilə birləşdirməyə nail olmuş böyük ictimai xadim, alim və şair), Mirzə Şəfi Vazeh (Alman şərqşünası Fridrix Bodenştedtin diqqətini cəlb etmiş, öz müəllimi Mirzə Şəfinin şeir dəftərini Avropaya aparmış, alman dilinə çevirmiş və nəşr etdirmişdi), İsmayıl bəy Qutqaşınlı (Yeni Azərbaycan realist nəsrinin ilk nümunəsi "Rəşid bəy və Səadət xanım" hekayəsinin müəllifi) kimi görkəmli şəxsiyyətlərin fəaliyyətini xüsusilə qeyd etmək yerinə düşər. Eyni zamanda Azərbaycan realist poeziyanın M.P.Vaqif yaradıcılığı əsasında inkişafı yeni yaranan əsərlərə də təsir edir. Füzuli şeirinin təsiri altında yaranan ədəbi əsərlərlə yanaşı, tənqidi realist satira (Q.B.Zakir), maarifçilik (Seyid Əzim Şirvani), Azərbaycan ədəbiyyatında realist dram, roman, hekayə, novella, povest və s. kimi janrların yaranması (Mirzə Fətəli Axundzadə) Azərbaycan ədəbiyyatının sonrakı inkişafında oynadığı böyük rolu qeyd etməliyik. Mirzə Fətəli Axundzadənin maarifçi realist əsərləri S.Ə.Şirvani (1835-1888), N.Vəzirov (1854-1926), Ə.Haqverdiyev kimi realist sənətkarların yetişməsində böyük rol oynamışdır.

Yazıçı, şair, alim, filosof, ictimai xadim, xalqının maariflənməsində böyük rolu olan, Azərbaycan ədbiyyatı tarixində mühüm yer tutan, "sənətin və ədəbiyyatın roluna yüksək qiymət verən" Mirzə Fətəli Axundzadə eyni zamanda Şərqin ilk dramaturqudur. Altı komediyanın ("Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəlişah cadukүni-məşhur", "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Sərgüzəşti-mərdi-xəsis (Hacı Qara)", "Mürafiə vəkillərinin hekayəti") müəllifi M.F.Axundzadə, "Aldanmış kəvakib" (1857) kimi nəsr, "Kəmalüddövlə məktubları" (1865) kimi fəlsəfi, ədəbi-tənqiq əsərlərin də müəllifi olan M.F.Axundzadə yaratdığı əsərlərində həm Rusiya və İran imperializminin müstəmləkə siyasətini kəskin tənqid etmiş, həm də yaşadığı cəmiyyətdə gördüyü nöqsanları, ictimai mühitin və siyasi quruluşun eyiblərini ifşa etmişdir. Onun geniş və zəngin yaradıcılığı tədqiq edilmişdir. M.F.Axundovun bədii, elmi yaradıcılığı haqqında XX əsrin birinci yarısında dəyərli əsərlər yazılmışdır. F.Qasımzadə («XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı. 1974,) F.Köçərli. (M.F.Axundov. Tiflis. 1911), F.Köçərli (Azərbaycan ədəbiyyatı tarixi materialları. c.I. h.2. Bakı. 1925), Abdulla Şaiq. («Mirzə Fətəli haqqında mülahizələrim» «Maarif və mədəniyyət», 1924. №4), Ə.Dəmirçizadə. («M.F.Axundov dil haqqında və M.F.Axundovun dili» Bakı. 1940), M.C.Cəfərov (M.F.Axundovun ədəbi-tənqidi görüşləri». Bakı. 1950), Ə.Mirəhmədov (M.F.Axundov. Bakı. 1953), M.Qasımov («M.F.Axundov və XIX əsr rus inqilabi-demokratik estetikası». Bakı. 1954), A.İbrahimov («M.F.Axundov arxivinin təsviri. Bakı. 1955), Lui Araqon («Qərb-Şərq divanı» zəruriyyəti haqqında». «Ədəbiyyat və incəsənət», 1957, №38), Ə.N.Quliyev, İ.M. Həsənov, İ.V.Striqunov (XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı. Bakı. 1962), Ə.M.Əhmədov (Böyük Azərbaycan mütəfəkkiri. Bakı. 1962), M.Cahangirov («M.F.Axundov öz dram əsərlərinin üzərində necə işləmişdir». Bakı. 1963), H. Məmmədzadə («M.F.Axundov və Şərq. Bakı. 1971) və başqaları M.F.Axundzadə irsinin tədqiqatçılarıdır.

İ.Həbibbəylinin Şərqin böyük filosofi M.F.Axundzadənin fəaliyyətinə dair araşdırması ədəbi irsimizə müstəqillik dövrü baxımından əhəmiyyətlidir. Yuxarıda adlarını çəkdiyimiz tədqiqatçılarımız sovet dövründə M.F.Axundzadə yaradıcılığını tədqiq etmiş, müəyyən qədər sovet ideologiyasının təsiri altında təhlilini vermişdirsə, İ.Həbibbəyli Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycan ədəbiyyatı tarixinin böyük yaradıcılarından biri kimi M.F.Axundzadə irsinə dair elmi-nəzəri fikirlərini irəli sürmüşdür.

M.F.Axundzadənin elmi-nəzəri görüşləri, bədii irsi İ.Həbibbəylinin tədqiqatlarında mühüm yer tutur.

İ.Həbibbəyli Mirzə Fətəli Axundzadəni Azərbaycanda, eləcə də Qafqazda, Orta Asiyada, ümumiyyətlə, türkmüsəlman aləmində "Qərbyönümlü mədəni tərəqqinin formalaşmasında" müstəsna rolu olan mütəfəkkir kimi? "Şərq qiyafəli", "Avropa düşüncəli", "Azərbaycançı milli məzmuna malik ictimai fikrin və mədəniyyətin inkişafında böyük xidmətlər"i olan ziyalı, maarifçi kimi yüksək qiymətləndirir. Çar Rusiya imperiyasının işğalı altındakı Qafqazın, o cümlədən Azərbaycanın XIX əsrdəki özünəməxsus siyasi çətinliklərinə baxmayaraq, bir çox mütərəqqi islahatların həyata keçirilməsinə nail olduğunu qeyd edir.

Mirzə Fətəli Axundzadənin ədəbi-nəzəri düşüncələrini yüksək dəyərləndirir. Onun orta əsrlərdən gələn aşiqanə qəzəl-qəsidə ədəbiyyatı və nəsihətnamələrlə milləti ayıltmaq, onun gözünü açmaq, ona hüququnu başa salmağın müşkül iş olmasıyla bağlı fikrini, böyük cəsarətlə artıq «Gülüstan» və «Zinətül-məcalis» tipli didaktik-nəsihət ədəbiyyatının zamanının keçdiyini bəyan etdiyini, təqlid və nəzirəçiliyin qarşısını almaq, habelə realist ədəbiyyatın yolunu açmaq üçün hətta böyük Füzulini də tənqid etməkdən çəkinmədiyini vurğulayır. Mirzə Fətəlinin qənaətlərini (artıq yeni dövrdə «millət üçün faydalı və oxucular üçün rəğbətli olan əsərlər drama və romandır") yada salır və "bu mənada, M.F.Axundzadə 1850-1855-ci illərdə özünün məşhur altı komediyasını yaratmaqla nəinki Azərbaycan ədəbiyyatında, bütövlükdə Balkanlardan Hindistana qədərki türk-müsəlman dünyasında dramaturgiyanın əsasını qoymuşdur. Böyük ustad bu komediyalar ilə Şərq aləmində dram yazmağın nümunəsini göstərmişdir. Bunu hər kəs qəbul edir ki, türk-müsəlman dünyasında dramaturgiya Mirzə Fətəli Axundzadə dramatur-giyasının ənənələri işığında inkişaf etmişdir" - deyir.

Mirzə Fətəli Axundzadənin ictimai-siyasi, ədəbi-mədəni inkşafla bağlı olaraq XIX əsrin ortalarında milli ədəbiyyatı romantik səmalardan gerçək həyata endirmək, realizmi bərqərar etmək vəzifəsini dönmədən və uğurla həyata keçirdiyini bildirən İ.Həbibbəyli bunun üçün əsasən əsilzadələrdən, aşiqanə motivlərdən söz açmaq üstündə köklənmiş orta əsr ədəbiyyat ənənələrini qırıb dağıtmaq, məmləkətin və millətin həyatından, əhvalından, düşüncəsindən bəhs edən ədəbiyyat yaratmaq lazım gəldiyini yazır: "Bir az əvvəl Molla Pənah Vaqif real Azərbaycan qadınının obrazlarını, təbiət təsvirlərini ədəbiyyata gətirməklə bu işə başlamışdı. Amma onda ölkənin problemləri bütün genişliyi və ciddiliyi ilə hələ ədəbiyyata gələ bilməmişdi. Bu böyük milli vəzifəni də bütövlükdə ilk dəfə M.F.Axundzadə tam şəkildə həyata keçirdi. Məhz M.F.Axundzadənin xidmətləri sayəsində Azərbaycan ədəbiyyatında ilk dəfə idi ki, Ağcabədi bazarında, Nuxa şəhərində Hacı Kərim Zərgərin evində, Xaçmaz dağlarında, Qarabağ vilayətində, Təklə-Muğan qışlağında, Şəmsəddin mahalındakı obalarda, kəndlərdə baş verən əhvalatlardan, yalançı kimyagərlərdən, cadugər dərvişlərdən, xırs-quldurbasanların aqibətindən, xəsislik mövzusundan bəhs edən əsərlər yazılmışdı. Bunlar Azərbaycan maarifçi realist ədəbiyyatının nadir inciləri idi".

Azərbaycan realist ədəbiyyatının Molla Pənah Vaqifdən Cəlil Məmmədquluzadəyə qədərki inkişaf yolunda Mirzə Fətəli Axundzadədən uca zirvə təsəvvür etməyən İ.Həbibbəyli bunu da qeyd etməyi özünə borc bilir ki, Vaqifdən, yəni erkən realizmdən Mirzə Cəlilə, yəni tənqidi realizmə keçid üçün Azərbaycan ədəbiyyatı maarifçi realizm dövrünü də yaşamalı idi. Zamanında bu vəzifəni həyata keçirməyin öhdəsindən gəlməyi də M.F.Axundzadə bacarmışdı. Mirzə Fətəli Axundzadənin şeir yaradıcılığını nümunə gətirir, onun Zəmanədən şikayət"inin ictimai motivli və maarifçi baxışların təbliğinə həsr olunduğunu görür: "Fəsad ilə dolu göylər edərkən tərsinə dövran, tükənməz qəmdən olmuşdu könül dərdli, ürək nalan" deyən şair Səbuhi müasirlərinə yazdığı mənzum məktublarda "şikayət" notuna müxtəlif oktavalarda toxunmuş, zəmanəsində gerilikdən şikayətin zəminində irəlidəki maarifçi ideala diqqəti cəlb edə bilmişdir".

Dramaturqun dram əsərlərində Müsyö Jordanın simasında Qərb maarifçiliyinə üstünlük verdiyini, Şahbaz bəyin simasında Avropanın elmi birliklərinə yiyələnməyə can atan vətənpərvər azərbaycanlıların yetişəcəyinə ümid bəslədiyini diqqətə çəkdiyini söyləyir: "Böyük ədib arzu edirdi ki, "qoy bizim millətimiz bir az gözü açılıb fanatiklikdən çıxsın, bəlkə patriot olsun, onda hər nə etsən, baş tutar". Beləliklə, Mirzə Fətəli Axundzadənin yaradıcılığı ilə Azərbaycan maarifçi realizmi kamillik mərhələsinə çatmış, bətnində tənqidi realizmin rüşeymlərini hazırlamışdır. Nəticə etibarilə, Molla Pənah Vaqiflə başlanan Azərbaycan realizmi mollanəsrəddinçi tənqidi realizm səviyyəsinə Mirzə Fətəli Axundzadənin mükəmməl maarifçi realizm körpüsündən keçərək gəlib çatmışdır".

Azərbaycan teatrının inkişafında M.F.Axundzadənin komediyalarının rolunu yüksək qiymətləndirir. 1873-cü ildə Həsənbəy Zərdabinin Nəcəfbəy Vəzirovla birlikdə Bakı məktəblərinin birində məşhur «Hacı Qara» əsərinin tamaşasını göstərməklə Azərbaycanda, həm də ümumən türk-müsəlman aləmində teatr hərəkatının əsasını qoyduğunu vurğulayır. İ.Həbibbəyli illərlə əvvəl Məmməd Arifin söylədiyi fikirləri qüvvətləndirmiş olur: «Axundov Azərbaycan ədəbiyyatında realist dramaturgiyanı ən sağlam və nəcib bir bünövrə üzərində yaratmış və inkişaf etdirmişdir. O, dünya ədəbiyyatının və xüsusən də rus realist ədəbiyyatının qabaqcıl nailiyyətlərinə əsaslanaraq, gələcək nəsil üçün aydın, düzgün və zəngin ənənələr qoyub getmişdir» (22. Məmməd Arif, Seçilmiş əsərləri I cild. Az. SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı 1967. 288 səh.).

Mirzə Fətəli Axundzadənin komediyalarında Azərbaycan qadınlarının timsalında ilk dəfə Şərq qadınlarının səhnə obrazları yaradıldığı, XIX əsrdə teatr səhnəsində Azərbaycan qadınının səhnədə kişilərlə birlikdə gülüb danışmasını göstərməyin böyük hünər tələb etdiyini, zamanına görə bu böyük işi Mirzə Fətəli Axundzadənin əsərlərini səhnəyə çıxarmaqla Azərbaycan maarifçiləri həyata keçirdiyini söyləyən İ.Həbibbəyli Cəlil Məmmədquluzadənin fikirlərini ("bu qadınların cümləsi fitri qabiliyyət və gözəlliklərin heç birindən məhrum deyillər... Fəqət tək bircə dənə düşmənləri var: o da elmsizlik!") diqqətə çatdırır. Gəldiyi qənaəti belə bölüşür ki, "tədricən Azərbaycan qadınının təkcə səhnədə yox, cəmiyyət həyatında da yer tutmağa başlaması "Axundzadə işinin" əks-sədasıdır".

M.F.Axundzadənin porziya sahəsindəki uğurlarını araşdırır. Bildiyimiz kimi, M.F.Axundzadə bədii yaradıcılığa şeirlə gəlmiş, «Zəmanədən şikayət», Azərbaycan və fars dillərində yazdığı «Zivər, nə səzadır sənə, ey dilbəriziba», «Tərəkəmə qadını ilə Molla Kərimin söhbəti», «Təcnis», «Təcnisi-digər» və s. kimi şeirlərində saf məhəbbəti tərənnüm etməklə yanaşı, «Bədihəxani-Ərdəbil və Məşədi Büttan Səlyani», «Hekayəti pota Kərim və Səfər dəllək», «Hekayəti-Seyid Ələm Səlyani» mənzumələrində din xadimlərini, xalqın qanını soran seyid və mollaları satira atəşinə tutmuşdur.

*(Davamı var)*